


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 iyun 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 23 (3637)


**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 12-də dünyanın aparıcı investisiya şirkətlərindən biri olan alternativ investisiyaların idarə edilməsi üzrə "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlixi qəbul edib.***

***Ölkəmizin rəhbəri iyunun 13-də İtaliya Respublikası Nazirlər Şurasının keçmiş sədri, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Silvio Berluskoninin vəfatı ilə əlaqədar Prezident zati-aliləri cənab Sercio Mattarellaya başsağlığı teleqramı ünvanlayıb.***

***Prezidenti İlham Əliyev iyunun 14-də Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib.***

# TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLUB



İyunun 12-də Azərbaycan Prezidentinin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan ölkəmizdə səfərdə olub.

Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib. Ziyafət konsert proqramı ilə davam edib. Konsert proqramında tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında Azərbaycanın və Türkiyənin xalq mahnılarından və klassik musiqilərindən nümunələr səsləndirilib.

Ertəsi gün Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub. Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verib. Qardaş ölkələrin Dövlət himnləri səslənib. Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan əsgərlərini salamlayıb, fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçib.

Qardaş ölkə başçıları təkbətək görüşüb, sonra görüş hər iki ölkənin geniş tərkibdə nümayəndə heyətinin iclası ilə davam edib.

Prezident Rəcəb Tayyib Ərdoğanı salamlayan ölkəmizin rəhbəri seçkilərdə qazandığı qələbə münasibətilə onu bir daha təbrik edərək Türkiyə-Azərbaycan birliyini, qardaşlığını sabitliyə, inkişaf və təhlükəsizliyə töhfə verən amil kimi dəyərləndirib.

Göstərilən qonaqpərvərliyə görə xüsusi təşəkkürünü ifadə edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizin bütün sahələrdə daha da inkişaf etdirməkdə qərarlı olduqlarını bildirib. Türkiyənin Şuşadakı baş konsulluğunun çox qısa zamanda açıla biləcəyini, bunun başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacağını deyən qardaş ölkənin başçısı təkbətək görüş zamanı Xəzərdən keçən Orta Dəhlizin və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin də müzakirə olunduğunu diqqətə çatdırıb.

Prezidentlər mətbuata bəyanatla çıxış ediblər.

Ölkəmizin rəhbəri bəyanatda Türkiyə-Azərbaycan qardaşlıq ələqələri qarşısında yeni imkanların, yeni üfüqlərin açıldığını, görülmüş işlərə yekun vurulduğunu, eyni zamanda, növbəti illərdə müəyyən olunmuş hədəflər istiqamətində görüləcək işlər barədə geniş fikir mübadiləsi aparıldığını bildirib. Qeyd olunub ki, Türkiyə və Azərbaycan arasında olan iqtisadi, siyasi, ticarət, enerji, nəqliyyat, təhsil, müdafiə, təhlükəsizlik üzrə gələcək işbirliyi proqramları hazırdır və proqramlar əsasında konkret işlər gedir. Prezident İlham Əliyev təkbətək görüşdə eyni zamanda, Zəngəzur dəhlizinin tezliklə açılması məsələsinə toxunduqlarını da vurğulayıb.

Sonra çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısı ilə bütün vacib məsələlərin danışıldığını, eləcə də görüləcək işlərlə bağlı qərarların alındığını diqqətə çatdırıb. "Bir millət, iki dövlət olaraq aramızdakı Preferensial Ticarət Sazişindən tutmuş digər sahələrdə atacağımız addımlarla, İnşallah, Türkiyə-Azərbaycan qardaşlığını daha yüksək səviyyəyə çatdıracağıq",-deyə o, bəyanatın sonunda qeyd edib.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.

İyunun 13-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri başa çatıb, dövlətimizin başçısı İlham Əliyev onu yola salıb.

# NAZİR V.EYVAZOV İSMAYILLIDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-13-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə İsmayıllı şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

*Ardı 2-ci səhifədə.*



# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİNƏ

***Hörmətli həmkarlar!***

***Sizi Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.***

***Ümummilli lider Heydər Əliyevin xalqın xilası missiyasını öz üzərinə götürdüyü 1993-cü il iyunun 15-i dövlətçilik tariximizin ən şanlı və parlaq səhifələrindən biridir. Ölkəmizin taleyində dönüş anı olan həmin dövrdə ayrı-ayrı silahlı dəstələrin kriminal əməlləri, vətəndaş müharibəsi, separatçılıq və parçalanma meyilləri kimi dövlətin varlığına son qoya biləcək təhdidlərlə üzləşmiş Azərbaycanın müstəqilliyi məhz ulu öndərin qətiyyəti, müdrikliyi ilə qorunub saxlanılaraq əbədi və dönməz xarakter almış, davamlı sosial-iqtisadi inkişafın əsasları formalaşdırılmışdır.***

***Bu keşməkeşli illərdə milli dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında yaxından iştirak edən daxili işlər orqanları Heydər Əliyevin rəhbərliyi altında ölkədə sabitliyin yaranmasına, qanunçuluğun bərpasına layiqli töhfələr vermiş, tarixi sınaqlardan şərəflə çıxaraq mətinləşmiş, çevik və peşəkar hüquq mühafizə orqanı səviyyəsinə yüksəlməyə nail olmuşdur.***

***İndi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyən ölkəmizdə xalq – iqtidar birliyinə söykənən sabitlik etibarlı təmin olunur və günbəgün möhkəmlənir. Əminəm ki, siz anda və Heydər Əliyev ənənələrinə sadiq qalaraq həmişə dövlətçiliyin keşiyində əzmlə dayanacaq, Vətənə və xalqa şərəflə xidmət edəcəksiniz.***

***Bu əlamətdar gündə sizə, həmçinin veteranlarımıza, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın və hərbi qulluqçularımızın ailə üzvlərinə möhkəm cansağlığı, səadət və uğurlar arzulayıram.***

**Vilayət Eyvazov**
**Azərbaycan Respublikasının**
**daxili işlər naziri**
**general-polkovnik**

# MDB-NİN PAYTAXT POLİS RƏİSLƏRİ BAKIDA



İyunun 14-də Daxili İşlər Nazirliyində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanlarının paytaxt qurumları rəhbərlərinin növbəti iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Tədbiri giriş sözü ilə açan daxili işlər naziri qonaqları salamlayıb, iclasın işinə uğurlar arzulayıb. O, gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə uzlaşan vəzifələrə uyğun olduğunu qeyd edib, paytaxt şəhərlərində təhlükəsizliyin təmin olunmasına, cinayətkarlığa qarşı mübarizənin effektivliyinin artırılmasına həsr olunmuş müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini bildirib.





Daha sonra cənab V.Eyvazov iclas iştirakçılarına respublikadakı kriminogen durum, həyata keçirilən tədbirlər barədə məlumat verib və bildirib ki, cinayətkarlığın qarşısının alınması və açılması işinin effektiv təşkili, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmini ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edir. Bu məqsədlərə çatmaq üçün birgə səylər daha da gücləndirilməli, məqsədyönlü və davamlı olmalıdır.

Qonaqların nəzərinə çatdırılıb ki, hərtərəfli islahatlar və modernləşmə cinayətkarlığın, onun transmilli mütəşəkkil növlərinin təhdidlərinə qarşı adekvat cavab tədbirlərinin görülməsinə imkan verir. O da bildirilib ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında, ictimai təhlükəsizliyin təmin edilməsində əldə olunan müsbət nəticələrin məntiqi nəticəsi olaraq, Azərbaycan özünün sabit və təhlükəsiz ölkə imicini təsdiqləyib. Onun paytaxtı Bakı şəhəri beynəlxalq əhəmiyyətli siyasi, mədəni və idman tədbirlərinin, o cümlədən zirvə görüşlərinin, konfransların, humanitar forumların, dünya və Avropa çempionatlarının keçirildiyi məkana çevrilib.

Mövcud problemlərə toxunan daxili işlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, yeni təhdid və çağırışlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Çıxışının sonunda general-polkovnik Vilayət Eyvazov iclasda aparılacaq müzakirələrin əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəyinə, iştirakçılara öz həmkarlarının təcrübəsindən faydalanmaq imkanı, bütövlükdə, cinayətkarlığa qarşı mübarizəyə layiqli töhfələr verəcəyinə əmin olduğunu bildirib.

İclas iştirakçıları xatirə şəkli çəkdirib.

İşçi qaydada davam etdirilən iclasda əməkdaşlığın prioritet istiqamətləri və perspektivləri, narkotiklərin qanunsuz dövriyəsi, kibercinayətkarlıq, habelə transmilli mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə, informasiya mübadiləsinin intensivləşdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

Tədbirin sonunda növbəti iclasın Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilməsi qərara alınıb.

# NAZİR V.EYVAZOV İSMAYILLIDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB







*Əvvəli 1-ci səhifədə.*

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan və Şamaxı rayonlarından qəbula gələn 161 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. İyirmi yeddisi Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 101 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.




# 15 İYUN - QÜRUR VƏ ŞƏRƏF GÜNÜ

Müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmaqla ölkəmizin suverenliyini, müstəqilliyini xilas etdi.

Ulu öndərin iyunun 9-da Bakıya gəlişindən sonra-iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi, qardaş qırğınının qarşısını almaq istiqamətində göstərdiyi səylər daha kəsərli etdi.

Ümummilli liderin hakimiyyətə qayıdışı ilə ölkəmizdə milli barış və inkişaf dövrü başlandı. Qısa müddət ərzində daxili ictimai-siyasi vəziyyət nəzarət altına alındı, sabitlik təmin edildi, Dağlıq Qarabağ münaqişəsində atəşkəs müqaviləsi imzalandı, iqtisadi problemlər əhəmiyyətli dərəcədə həll edildi, vətəndaşların sosial-iqtisadi vəziyyətində artım hiss edilməyə başlandı, ən başlıcası, ordu quruculuğunda mühüm addımlar atıldı.

“Əsrin Müqaviləsi”nin imzalanması Azərbaycanın sonrakı illərdə iqtisadi inkişafına təkan verməklə yanaşı ölkəmizin xarici siyasətində də mühüm rol oynadı.

İkitərəfli və çoxtərəfli görüşlər, intensiv xarici səfərlər nəticəsində Azərbaycan informasiya blokadasından çıxdı, dünya ictimaiyyəti Ermənistanı bir işğalçı dövlət kimi tanıdı.

İntensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılması, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi. Ümummilli lider tərəfindən daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən 34 qanun, 100-dən çox fərman və sərəncam imzalandı. DİN sistemində islahatlar aparılaraq yeni qurumlar yaradıldı.





Məhz onun rəhbərliyi altında hüquq mühafizə orqanları respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başlanıldı. Vətəndaşların dinc, rahat yaşamaları üçün lazım olan şərait yarandı, onların dövlətə, hüquq mühafizə orqanlarına inamı daha da artdı, ictimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü aydın göstərir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən, düşünülmüş və qətiyyətli siyasəti sayəsində 44 gün ərzində qazanılan Zəfər, bu gün 30 ilə yaxın yurd-yuva həsrətilə yaşayan soydaşlarımızın Vətənə qayıdışı, əldə edilən uğur və nailiyyətlər onu söyləməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin bizlərə miras qoyduğu müstəqil dövlət əmin əllərdədir.

İllər ötsə belə xalqımız 15 iyun tarixini hər zaman qürur və şərəf günü kimi qəbul edəcək. O tarixi bizlərə bəxş edən dahi insanı eyni sevgi, hörmət və ehtiramla xatırlayacağıq.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# “İnsan hüquqları aylığı”
## çərçivəsində tədbirlər keçirilib

Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 18-i respublikamızda "İnsan Hüquqları Günü" kimi qeyd olunur. Bu münasibətlə paytaxtda olduğu kimi,





yerlərdə də silsilə tədbirlər keçirilir. Astara RPŞ-nin təşkilatçılığı ilə 5 nömrəli tam orta məktəbdə təşkil olunan tədbirin də mövzusu insan hüquq və azadlıqlarına həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə açan Astara Rayon Polis Şöbəsi rəisinin müavini, polis polkovnik-leytenantı Amil Seyfullayev ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlərdən və qəbul edilən qanunvericilik aktlarından danışıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə ölkəmizdə insan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramı təsdiq edilib. Ənənəvi olaraq hər il mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan Hüquqları Aylığı keçirilir. Aylığın keçirilməsində məqsəd insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri diqqətə çatdırmaq, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.

Daha sonra RPŞ-nin təşkilati inspeksiya qrupunun baş inspektoru, polis mayoru Valeh Məmmədov, Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Bəsti Əliyeva, rayon prokurorunun köməkçisi, ədliyyə müşaviri Tərlan Həmidov çıxışlarında insan hüquqlarının tarixindən, Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində görülən işlərdən, ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalardan, qazanılan uğurlardan və hazırda aparılan islahatlardan bəhs ediblər.

***

Yardımlı Rayon Polis Şöbəsində təşkil olunan tədbirdə şöbə rəisi, polis polkovniki Rauf Babaşov, Rayon İcra Hakimiyyəti başçısının müavini Əfsanə Məmmədova və digər şəxslər çıxış edərək Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə iyunun 18-nin ölkəmizdə “İnsan Hüquqları Günü” kimi qeyd olunduğunu və bu istiqamətdə hər il respublikamızda “İnsan Hüquqları Aylığı” çərçivəsində maarifləndirici tədbirlərin keçirildiyini bildiriblər. Çıxışlarda insan hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğu və dövlətin hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Konstitusiyamız ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunduqdan sonra bu sahədə hüquqi bazanın yaradılmasının əsası qoyulub. Azərbaycan Respublikasının insan hüquqlarına dair sazişlərə qoşulması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

*Məhəmməd Rzayev,*
*polis kapitanı*





# Təcrübə dərsləri ÖNƏMLİDİR

Polis Akademiyasında təlim-tədris prosesində aparılan islahatların davamı olaraq Akademiyanın tədris modulunda, kriminalistik poliqonunda və məhkəmə otağında mütəmadi olaraq təcrübə dərsləri keçirilir. Bu tip simulyasiya xarakterli dərslərin keçirilməsində məqsəd kursantlarda nəzəri biliklərin təcrübədə tətbiq edilməsi vərdişlərinin yaradılması, onlarda prosessual danışıq qabiliyyətinin formalaşması və gələcək fəaliyyətlərində təyin olunacaqları vəzifəyə tez adaptasiya olmasından ibarətdir.

Növbəti simulyasiya xarakterli dərs məhkəmə otağında “Cinayət prosesi” kafedrasının müəllimi, polis mayoru Rafik Quliyev tərəfindən Akademiyanın əyani təhsil üzrə III kurs kursantları ilə həbs qətimkan tədbirinin seçilməsi mövusunda keçirilib. Mövzu üzrə kursantlar arasında rol bölgüsü aparılıb və onların sıralarının-dan hakim, məhkəmə iclas katibi, prokuror, müstəntiq, vəkil və təqsirləndirilən şəxs seçilib.

Əvvəlcədən verilmiş fabula üzrə təqsirləndirilən şəxs barəsində birinci instansiya məhkəməsində həbs qətimkan tədbirinin seçilməsinə baxılıb və təcrübə dərsi kursantlar tərəfindən maraqla qarşılanıb.

*“Polis”*

# Xüsusi internat məktəbində görüş





Nizami Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları yol hərəkəti qaydalarını öyrətmək, uşaqlarla bağlı yol-nəqliyyat hadisələrinin sayını azaltmaq məqsədilə rayon ərazisində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbində maarifləndirmə tədbiri keçiriblər.

Tədbir uşaqların çıxışları ilə başlayıb. Onlar yol qaydalarına aid şeir, mahnı və səhnəciklərdən ibarət kompozisiya təqdim ediblər.

Yol Patrul Xidməti əməkdaşları məktəblilərə piyadanın vəzifələri, yol nişanları və nizam-intizam qaydaları barədə ətraflı məlumat veriblər. Qeyd olunub ki, bu tipli görüşlərin keçirilməsində əsas məqsəd şagirdlərə yol hərəkəti qaydaları haqqında dolğun məlumat vermək, onlar arasında təhlükəsizlik davranış vərdişlərini aşılamaq, uşaq və yeniyetmələrin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin minimuma endirilməsindən ibarətdir.

Yol hərəkəti qaydaları ilə bağlı uşaqlara suallar verilib və onların DYP əməkdaşlarına sualları cavablandırılıb.

Məktəb rəhbərliyi bu cür maarifləndirici tədbirləri yüksək qiymətləndirib.

*Natiq Cavadov,*
*polis mayoru*

# Şəhidlərin xatirəsinə abidə ucaldılıb

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ölkəmizin suverenliyinin müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda şərəfli döyüş yolu keçib.***

Vətən naminə həyatını fəda etmiş qəhrəman hərbi qulluqçularımız heç vaxt unudulmur, xatirələri ehtiramla anılır.

67987 saylı hərbi hissədə şəhidlər abidəsi yaradılıb. Ümumi sahəsi 240 kvadratmetr olan abidənin inşası zamanı milli memarlıq elementləri və hərbi ehtiram ənənələri nəzərə alınıb. Abidənin üzərində Daxili Qoşunların emblemi, ümummilli lider Heydər Əliyevin şəhidlər haqqında və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın qəhrəmanlığı barədə sözləri öz əksini tapıb. Bununla yanaşı, abidəyə hərbi hissənin Birinci Qarabağ müharibəsində şəhid olmuş 262 nəfər şəxsi heyətinin adları, həmçinin 44 günlük Vətən müharibəsində şəhadətə ucalmış 10 nəfər hərbi qulluqçusunun adları və şəkilləri həkk olunub. Fərqli memarlıq quruluşu ilə seçilən abidənin sol tərəfindəki dəmir dirəkdə üçrəngli bayrağımız qaldırılıb, önündə isə əbədi məşəl alovlandırılıb. Burada yaşıllıq zolağı da salınıb.



İyunun 10-da hərbi hissədə şəhidlərin xatirəsinə ucaldılan abidənin açılış mərasimi keçirilib. Mərasimdə daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi, general-mayor İnqilab Muradov, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Xətai Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Vaqif Müslümov, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər və veteranlar iştirak ediblər. İştirakçılar tərəfindən ümummilli lider Heydər Əliyevin və şəhid hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni oxunub.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini, polkovnik-leytenant Aftandil Budaqov mərasimdə çıxış edib. O, çıxışında Birinci Qarabağ müharibəsi və 44 günlük Vətən müharibəsi dövründə hərbi hissənin şəxsi heyətinin qarşıya qoyulmuş döyüş tapşırıqlarını mətinliklə yerinə yetirdiyini, ön cəbhədə misilsiz şücaət nümunələri göstərdiyini, torpaqlarımızın işğaldan azad olunmasına layiqli töhfə verdiyini vurğulayıb. Qeyd olunub ki, hərbi hissənin müharibədə iştirak etmiş bir çox hərbi qulluqçusu ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladıqları müvafiq sərəncamlarla ali dövlət mükafatlarına layiq görülüb. Diqqətə çatdırılıb ki, zəngin döyüş təcrübəsinə malik hərbi hissənin şəxsi heyəti qəhrəmanlıq ənənələrinə sadiqdir və vətənpərvər ruhda tərbiyə olunur.

Polkovnik-leytenant A.Budaqov daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının rəhbərliyi altında Qoşunlarda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün geniş işlər görüldüyünü, açılışı olan bu abidənin də şəhidlərin xatirəsinə ehtiramın növbəti təzahürü olduğunu bildirib.

Sonra abidənin önünə gül dəstələri qoyulub və xatirə şəkli çəkdirilib.

# DƏYƏRİ 20 MİLYON MANAT...

Milli genefondumuza mənfi təsir göstərən narkotiklərə qarşı mübarizə Daxili İşlər Nazirliyinin qarşısında dayanan əsas prioritet istiqamətlərdən biridir. Bu sahədə Nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən son 1 ay ərzində də intensiv əməliyyat tədbirləri həyata keçirilib. Nəticədə İrandan qaçaqmalçılıq yolu ilə ölkəmizə narkotik vasitələr göndərən transmilli mütəşəkkil dəstənin Azərbaycandakı üzvlərinə, eləcə də daxildə narkotiklərin satışını təşkil edən şəxslərə qarşı paytaxt və bölgələrdə keçirilən əməliyyatlar zamanı 8 mütəşəkkil dəstənin üzvləri, o cümlədən 83 nəfər saxlanılıb. Qanunsuz dövriyyədən "qara bazar"da dəyəri 20 milyon manat olan 512 kiloqram narkotik vasitə - kokain, heroin, tiryək, marixuana, psixotrop maddə - metamfetamin, eləcə də 13 min ədəd ekstazi və metadon həbi çıxarılıb. Əməliyyatlar paytaxtla yanaşı Sumqayıt şəhəri, Abşeron rayonu, bölgələrdə baş tutub. Baş İdarənin əməkdaşları tərəfindən çətin relyef, coğrafi və meşəlik şəraitindən, eləcə də Xəzər dənizinin İran sahillərindən qayıqlarla ölkəyə narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə gətirilməsinin qarşısı qətiyyətlə alınıb.




# Uşaqlar yol hərəkəti qaydalarını öyrənirlər



Dünya Səhiyyə Təşkilatının statistikasına görə hər gün minlərlə insan yol qəzalarında həlak olur və xəsarət alır. Təəssüf ki, Azərbaycanda da bu mənzərə ürəkaçan deyil. Ekspertlər qeyd edirlər ki, yaranmış vəziyyətdən çıxış yolu həm də davamlı maarifləndirmə prosesinin aparılmasıdır.

Bakı şəhər Dövlət Yol Polisi İdarəsi və Milli Konservatoriyanin tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının təşkilatçılığı ilə 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin xüsusi nişanlanmış şəhərciyində "Yay tətilini təhlükəsiz başa vuraq!" devizi altında maarifləndirici tədbir keçirilib.

Bakı şəhər BPİ-nin Dövlət Yol Polisi İdarəsinin inspektoru, polis kapitanı Pərvanə Muradova yol nişanları, nişanlanma xətləri, işıqforun siqnalları, piyada keçidlərindən düzgün istifadə etmə qaydaları barədə məlumat verib. O, xüsusilə, öyrəndikləri yol hərəkəti qaydalarına tətil zamanı da əməl etmələrinin zəruriliyini uşaqların diqqətinə çatdırıb.

Sonra uşaqların yol nişanlarını necə mənimsədiyini yoxlamaq üçün "Fikirləşirik, yadımıza salırıq, tez cavab veririk!" adlı interaktiv yarış təşkil olunub. Pazllarla oyun keçirilib, asfalt üzərində yol hərəkəti qaydalarına aid rəsmlər çəkilib.

Tədbirin sonunda qaliblər mükafatlandırılıb.

***Ruslan Vəliyev, polis baş leytenantı***




**Mükafatlı sual rubrikası**

**Bu oyunun adı Xalq yazıçısı İlyas Əfəndiyevin əsərlərinin birində çəkilir. Ona tərəkəmələrin "dava"sı da deyirlər. Söhbət hansı əsərdən və oyundan gedir?**

**Vatsap: +99455-875-16-39**

# Polislər də qan verdilər



Qax rayonunda könüllü qanvermə aksiyası keçirilib. Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən aksiyada yerli idarə, müəssisə və təşkilatların kollektivləri ilə yanaşı, Polis Şöbəsinin əməkdaşları da fəal iştirak ediblər.

Şəki regional qrupumuzdan verilən məlumata görə, əvvəlcə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı yoxlanılıb. Müayinədən sonra səhhəti imkan verən şəxslərdən qan götürülüb.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra irsi qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.

# Tədbirlər davam etdirilir

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena və yerin təkindən istifadə qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.

İyunun 5-də Bakı şəhəri və Şamaxı rayonu ərazilərində keçirilən belə tədbirlər zamanı sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi, məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, içməli məişət, texniki və tullantı sularının kənara (çöllərə, küçələrə, rabitə və enerji kommunikasiya şəbəkələrinə) təyinatsız axıdılması faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci, 266.3-cü və 262.2.3-cü maddələrinin tələblərini pozduqlarına görə Bakı şəhəri Suraxanı rayonunda Zığ qəsəbəsinin icra nümayəndəsi, Şamaxı rayonunda Sabir, Həyəli, Mədrəsə və Şəhriyar qəsəbələrinin bələdiyyə sədrləri, Şərədil kəndi ərazisində "Sərin Meşə" adlanan restoranın direktoru, Avaxlı kəndində bir vəzifəli, Sabir qəsəbəsində 2 fiziki şəxs barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

İyunun 8-də Göyçay rayonu ərazisində keçirilən tədbirlər zamanı Qarabaqqal, Şəhadət, Ərəbcəbirli, Çərəkə və Yeniarx kəndlərində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsinin tələblərini pozduqlarına görə həmin kəndlərin bələdiyyə sədrləri barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

İyunun 9-da İsmayıllı rayonu ərazisində keçirilən tədbirlər zamanı Qaraqaya kəndi ərazisində qanunsuz kömür istehsalı faktları aşkar olunub. İnzibati Xətalar Məcəlləsinin 275.1.1-ci maddəsinin tələblərini pozduğuna görə rayon sakinləri olan 5 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

İyunun 10-da Qəbələ rayonu ərazisində keçirilən tədbirlər zamanı Vəndam, Nic, Zarağan kəndləri ərazilərində qanunsuz kömür istehsalı, Nohurqışlaq kəndində qanunsuz çınqıl daşınması, Qəbələ şəhəri, həmçinin Həmzəli, Qəmərvən, Kiçik Pirəli, Sarağan kəndləri və Almadağ adlanan ərazidə məişət tullantılarının tutumlardan kənara atılması, Emirvan kəndində isə məişət tullantılarının qalaqlanması və yandırılması faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 275.1.1-ci, 228-ci, 266.3-cü, 271-ci maddələrinin tələblərini pozduqlarına görə Emirvan kənd bələdiyyəsinin sədri və rayon sakinləri olan 11 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

***Natiq Cavadov***

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik